**Karantin tətbiq edilən orqanizm aşkar olunmuş kartof məhsuluna dair məlumat (21 dekabr 2022)**

Nəzarət tədbirləri çərçivəsində Rusiya Federasiyasından fiziki şəxs Əskərov Şəmistan Kidır oğlu tərəfindən idxal olunan 20450 kq toxumluq kartof məhsuluna və hüquqi şəxs "AZ-AQRO FARM" MMC tərəfindən idxal olunan 19950 kq ərzaqlıq kartof məhsuluna Agentliyin müfəttişləri tərəfindən baxış keçirilib. Baxış zamanı idxal olunan məhsuldan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında müayinələrə cəlb olunub. Müayinələr nəticəsində nümunələrdə karantin tətbiq edilən orqanizm ("Ditylenchus destructor Thor."- kartof gövdə nematodu, "Clavibacter michiganensis subsp. Sepedonicus" - kartof yumrularında halqavari çürümə ) aşkar olunub.

Agentlik tərəfindən istifadəyə yararsız kartof məhsulu partiyalarının məhv edilməsi barədə qərar qəbul edilib.